# Sən möhtəşəm qızsan

"Sən möhtəşəm qızsan"
Cəsarət, dostluq, daxili güc və özünəinam
haqqında ilhamverici hekayələr toplusu

*Nadya Ross*

*Xüsusi sənət hekayələri*

İngiliscədən tərcümə:
İlahə Həbibova

qanun nəşriyyatı

# You are an Amazing Girl

A Collection of Inspiring Stories about Courage,
Friendship, Inner Strength and Self-Confidence

Nadia Ross

Special Art Stories

Kitab hər bir gənc qıza öz gücünü və dəyərini anlamağa kömək edən ilhamverici bir bələdçidir. Əyləncəli və ruhlandırıcı bir əhvalatdır. Bu kitab hər bir qızın necə özünəməxsus və bacarıqlı olduğunu göstərir. Gənc qızların ruhunu oxşayır və təsirli mesajlarla zəngindir. Hər yaşda oxucuya öz həyat yolunda uğur qazanması üçün özünəinam və motivasiya aşılayır.

Kitabın qəhrəmanı Luna sənə tanış obrazdır. O da sənin kimi yeniliklərlə maraqlanır, araşdırır, sınayır, qorxur, şübhələnir, narahat olur. Luna sənə bir sirr açmaq istəyir: “Özünə inansan, hər şeyi” bacaracaqsan. Çünki sən möhtəşəm qızsan!

# Mündəricat

Giriş
6
Maraqla dolu Luna
8
Nikol yeni məktəbdə
14
Saranın böyük tapşırığı
20
Öz yolunu tap
25
Lusi tort bişirir
30
Sofiya təzə dost qazanır
36
Qreys və uğursuz saç kəsmə
42
Ameliya və zorakılıq
48
Nadya və onun babası
55
Futbol ulduzu Mariya
62
Epiloq
68

# Giriş

Salam! Bilirsən ki, sən möhtəşəm qızsan? Sən çox özünəməxsussan. Bütün dünyada səndən yalnız bir dənədir, özü də milyardlarla insan içində! Sən ağıllı, zarafatcıl, cəsarətli və misilsizsən, bunu həmişə yadında saxla. Sən bu dünyaya başqalarının gətirə bilmədiyi möcüzəvi bir işıq saçırsan və yalnız sən bilirsən ki, necə parlayacaqsan.

Dünya qarşına çoxlu çətinliklər çıxaracaq. Bu çətinliklər bəzən böyük, bəzən kiçik olacaq. Onlar səni qorxuda və ya etdiklərindən şübhəyə sala bilər. Amma bilməlisən ki, bu hisslər hamımıza tanışdır! Sənin valideynlərin, nənə-baban, dostların, bacı-qardaşların, hətta tanımadığın insanlar bəzən öz seçimlərinə, hərəkətlərinə şübhə ilə yanaşırlar. Onlar da qorxurlar.

Amma sənə kiçik bir sirr açmaq istəyirəm: hətta səni qorxudan şeyləri də edə bilərsən! Bəzən ən çox qorxduğun şeylər sənə ən yaxşı təcrübəni qazandırır. Sən səhvlərdən öyrənə bilərsən, hətta özünü yaxşı hiss etmədiyin anlarda belə, gördüyün hər bir işdə yaxşılıq tapa bilərsən.

Bu kitab səni hər gün sənin yaşadıqlarını yaşayan bir qrup qızla tanış edəcək. Onlar da qorxur, narahat olur, bəzən bunun

öhdəsindən dərhal gələ bilmirlər. Onlar çox çalışırlar, səhvlərdən öyrənirlər və cəhd etməyə davam edirlər. Bu qızlar ruhdan düşür, öz bacarıqlarına şübhə edirlər və bəzən az qala təslim olmaq istəyirlər. Amma ürəklərinin dərinliyində ümid işığı parlayır.

Onlar təzədən ürəklənir, özlərinə təzədən inanırlar. Çətin anları arxada qoyaraq son məqsədlərinə çatırlar.

Sən də öz dünyanda günəş kimi parlamağa və qorxunu unudub öyrənməyə davam etdikcə, başqalarına da öz işığından pay verə bilərsən. Özünə inansan, hər şeyi bacaracaqsan.

Sən möhtəşəm qızsan.

# Maraqla dolu Luna



Yeni şeylər sınamaq sənin üçün nə qədər maraqlıdır? Səni həyəcanlandıran şeylər görürsənmi? Yeni şeyləri sınamağa həvəsin varmı? Sənə “uyğun” olan şeyi tapana qədər axtarırsanmı? Həyatda

hansı qərarı qəbul etmək barədə narahat olmamalısan. Dərhal bir seçim etmək məcburiyyətində də deyilsən. Səni maraqlandıran şeyləri tapmaq üçün vaxt ayıra bilərsən. Həyatda nə edəcəyinə özün qərar verirsən və ürəyinlə qərar vermisənsə, səhv edə bilməzsən!

~ ~ ~

Luna hər şeylə maraqlanırdı. O, yeni şeylər öyrənməyi o qədər xoşlayırdı ki, ailəsində çoxu ona "Maraqla dolu Luna" deyirdi. Luna buna fikir vermirdi və qarşısına çıxan hər şeyi sınamaqla fəxr edirdi, yeni şeylər axtarmaq onu həyəcanlandırırdı. Həyatında çox şeyi sınamışdı və həmişə bu işləri bütün ruhu və qəlbi ilə görmüşdü. İndiyə qədər tapdığı sevimli məşğuliyyətlərindən bəziləri truba çalmaq, meşədə qaçmaq, suda sıçramaq, kitab oxumaq, öz həyətlərində oynamaq, rəsm, şəkil çəkmək, anasının mobil telefonu ilə nənəsinə zəng vurmaq, maffin bişirmək, kart oynamaq, üzmək, velosiped sürmək və sair idi.

Amma başqalarında olan, Lunada olmayan bir şey vardı. Bu onların özlərinə məxsus bir cəhət idi. Lunanın anası rəssam, atası çörəkçi, bacısı basketbolçu idi, qardaşı isə yazmağı sevirdi. Onlar digər şeylərlə də maraqlanırdılar, amma hər biri ancaq bir işlə məşğul olurdu.

Beləliklə, Luna da qərar verdi ki, özünəməxsus "şey"i axtarıb tapsın. Sınaqdan keçirdiyi bütün məşğuliyyətləri yada saldı və ən çox nələri bəyəndiyini düşündü. İndiyə qədər gördüyü bütün işlər arasında ən çox skeytbord sürmək, musiqi alətində çalmaq və kitab oxumaqdan xoşu gəlmişdi.

Amma kitab oxumağın ona uyğun olub-olmadığından əmin deyildi. O, məşğul olmağı, hərəkət etməyi sevirdi və yalnız yatmazdan əvvəl, yaxud müəllimi ona oxu tapşırığı verəndə hekayələr oxuyurdu. Beləliklə, kitab oxumağı siyahısından çıxartdı və siyahıda sadəcə musiqi ilə məşğul olmaq və skeytbord sürmək qaldı.

Skeytbord sürməyin faydasını bilməsə də, yoxlamağı vacib bildi. Valideynlərinə müraciət edərək skeytbord dərslərinə yazıla və truba çalmağı öyrənə bilərmi deyə soruşdu. Valideynləri bir-birinə baxıb gülümsədilər. Bu, Lunaya istəyinə sadiq olduğunu və özünəməxsus marağını axtardığını bildirən bir gülümsəmə idi. Bu təbəssüm Lunanı çox sevindirdi.

Gələcək bir neçə həftə ərzində Luna yalnız skeytbord sürməyə və truba çalmağa diqqət yetirdi. Hər ikisi əyləncəli idi, amma Lunanın bütün zamanını ayırmaq istədiyi məşğuliyyət deyildi. O, truba və altı həftəlik skeytbord dərslərini tamamladı, amma ata-anasına daha davam etmək istəmədiyini bildirdi.

Sonra Luna bacısından ona basketbol öyrətməsini istədi. Düşünürdü ki, bəlkə, oyun sevgisi ailədən gəlir və basketbol əyləncəli olsa da, ürəyində özünə uyğun saymırdı. Luna, həmçinin qardaşından yazmaq barədə də soruşdu, amma yazmağı da sevmirdi. Luna "o şeyi" heç vaxt tapa bilməyəcəyindən narahat olmağa başladı.

Bir axşam yeməyində dərindən köks ötürdü. Atası anasına baxdı və Lunanın problemini səssizcə düşünərək qaşını qaldırdı. Anası çiyinlərini çəkdi, atası isə başını tərpətdi: "Luna, nə olub?"